

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 fevral 2024-cü il №15 (2826) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyev Xocalıda Soyqırımı Memorialının təməlini qoyub və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb




*Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.*

Dövlətimizin başçısı əvvəlcə mərasim iştirakçıları ilə görüşüb.

**Qadın sakin**: Xoş gəldiniz. Allah Sizi qorusun, cənab Prezident. Həyatımızın ən xoşbəxt günüdür.

**Sakinlər**: Var olun, cənab Prezident, Allah Sizi qorusun.

Prezident **İlham Əliyev**: Sağ olun.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- İlk dəfədir ki, Xocalı soyqırımı gününü biz Xocalıda günahsız Xocalı qurbanlarının xatirəsini anaraq qeyd edirik. Otuz iki ildən sonra biz doğma torpağımıza qayıtmışıq. Xocalı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün bu gün burada - 26 fevral günündə memorial kompleksin təməli qoyulacaq. Onu bildirməliyəm ki, bu layihə çoxdan hazır idi, yer də seçilmişdi, Bakı şəhərində Xocalı soyqırımı abidəsinin yanında yer seçilmişdir. Ancaq memorial kompleksin tikintisi ilə bağlı hər il mən müəyyən tərəddüdlər keçirərək o hadisəni, o layihəni təxirə salırdım. Ona görə ki, sizin kimi, mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq. Otuz iki ildən sonra siz qayıtmısınız. Otuz iki ildən sonra - o qanlı faciədən sonra biz Azərbaycanın hər bir guşəsində, Qarabağın hər bir yerində sahib kimi, bu Vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq işləri gedir.

Xocalı soyqırımı isə heç vaxt xalqımızın yaddaşından silinməyəcək. Heç vaxt Azərbaycan xalqı bu qanlı cinayəti unutmayacaq. Otuz iki il bundan əvvəl Ermənistan dövləti bu qanlı faciəni törədərək günahsız insanları qətlə yetirmişdir. 613 insan vəhşicəsinə qətlə yetirilmişdir, 150 insan itkin düşmüşdür, - təbii ki, onların da taleyi bəllidir, - 1000-dən çox insan girov götürülmüşdür, 60-dan çox uşaq, 100-dən çox qadın, yaşlı 70 insan erməni vəhşiləri, faşistləri tərəfindən vəhşicəsinə bir gecə içində qətlə yetirilmişdir.

Əfsuslar olsun ki, "Xocalıya ədalət!" çağırışımız cavabsız qaldı. Düzdür, 18 ölkə bizim səylərimizin nəticəsi olaraq bu qanlı faciəni soyqırımı kimi tanımışdır. Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır.

Azərbaycan dövləti, dövlət qurumları, eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar, bizim ictimai təşkilatlarımız və onların arasında Heydər Əliyev Fondu Xocalı soyqırımını dünyaya tanıtdırmaq üçün çox böyük səylər göstərmişdir. Heydər Əliyev Fondunun xətti ilə geniş vüsət almış "Xocalıya ədalət!" kampaniyası dünyanın müxtəlif yerlərində özünü göstərmişdir, bir çox tədbirlər, təqdimatlar həyata keçirilmişdir, kitablar, məqalələr dərc edilmişdir, sərgilər təşkil olunmuşdur. Yəni, biz bu həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün bir çox səylər göstərmişdik və haqlı olaraq dünyadan ədalət tələb edirdik. Çünki Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır. Halbuki Ermənistan dövləti, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələr, eyni ölkələr əlindən gələni edirdilər ki, bu hadisə ört-basdır edilsin, Ermənistan məsuliyyətə cəlb olunmasın, Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq edilməsin və onlar cəzasız qalsın.

Biz onilliklər ərzində çalışırdıq, xüsusilə son illər ərzində çalışırdıq ki, bu qanlı cinayəti törədənlər ədalət qarşısında cavab versinlər. Ancaq görürdük ki, bu ədaləti ancaq biz özümüz bərpa etməliyik və bunu etdik. İkinci Qarabağ müharibəsi ədalətin təntənəsi idi. İkinci Qarabağ müharibəsi nəticəsində o vaxt işğal altında olan torpaqların böyük hissəsi azad edilmişdir, işğal altında qalan ərazilər beş ay bundan əvvəl azad edilmişdir.

(Ardı 2-ci səhifədə)

## Prezident İlham Əliyev Xocalı soyqırımının ildönümü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün sosial şəbəkə hesablarında Xocalı faciəsinin 32-ci ildönümü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda “26 fevral 1992. Xocalı soyqırımı” sözləri yer alıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Xocalı soyqırımı ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Xocalı soyqırımı ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda “Xocalıya ədalət” şüarı yer alıb.

## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı yubileyi münasibətilə təbrik edib, Türkiyənin rifahı naminə fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Türkiyə dövlətinin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan Prezidentinə və xalqına başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını ifadə edib.

Söhbət zamanı İlham Əliyevin prezident seçiləndən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsinin önəmi bir daha qeyd edilərək, bu səfərin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulanıb.

Dövlət başçıları Şuşa Bəyannaməsinin əhəmiyyətinə bir daha toxunaraq, bu Bəyannamənin uğurla həyata keçirilməsindən məmnunluqlarını bildiriblər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə və möhkələnəcəyinə əminliklərini bildiriblər, əməkdaşlığın perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıblar.

# Prezident İlham Əliyev Xocalıda Soyqırımı Memorialının təməlini qoyub və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb

(Əvvəli 1-ci səhifədə)

Mən bilirəm ki, siz xocalılılar o vaxt bütün Azərbaycan xalqı kimi sevinmisiniz. Onu da bilirəm, sizin ürəyinizdə müəyyən fikirlər var idi ki, bəs Xocalı nə olacaq, bəs Xankəndi nə olacaq? Mən bunu bilirdim, ancaq sizə deyə bilmirdim ki, nə olacaq. Halbuki siz də bilirdiniz, mən də bilirəm ki, hər şey ədalətli olacaq. Biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik. Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik. Beş ay əvvəl antiterror əməliyyatı nəticəsində Xocalı daxil olmaq şərtilə, bütün o vaxt digər ərazilər - hansılar ki, işğal altında idi və separatçılar orada at oynadırdılar, - azad edildi. 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı qaldırıldı. Biz Xocalıda böyük abadlıq işlərinə də start vermişik.




"Xocalıya ədalət!" tələbimiz tam haqlı idi. Bu ədaləti döyüş meydanında təmin etməyimiz beynəlxalq hüquqa və tarixi ədalətə tam uyğundur. Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, onların qanını döyüş meydanında aldıq qoymadıq ki, onların qanı yerdə qalsın. Düzdür, buna 30 il vaxt lazım oldu. Ancaq bu 30 il ərzində görülmüş işlər, apardığımız məqsədyönlü siyasət bu günü burada yaşamaq üçün bizə imkan yaradırdı.

O vaxt - işğal dövründə mənim köçkünlərlə, - bu gün keçmiş köçkünlər adlandırılır, köçkün anlayışı artıq tamamilə silinib bütün bizim vətəndaşlarımızdan, - çoxsaylı görüşlər əsnasında hər dəfə onlara deyirdim ki, gün gələcək və biz bütün torpaqlarda Azərbaycan Bayrağını qaldıracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Yüzdən çox köçkün qəsəbəsi salınmışdır və köçkün qəsəbələrinin hamısının açılışlarında mən iştirak etmişəm. Birinci köçkün qəsəbəsi o vaxt Ulu Öndər Heydər Əliyevin iştirakı ilə məhz xocalılılar üçün Ağcakənd qəsəbəsində salınmışdır və o vaxt bizim o qədər də böyük maliyyə imkanlarımız yox idi. Ancaq olan-qalan vəsait də bax o məqsədlər üçün istifadə olundu və bu, bir yol göstəricisi idi. Yəni, Ulu Öndər hamımıza göstərmişdi ki, biz ağır vəziyyətdə yaşayanlar üçün gərək şərait yaradaq. Eyni zamanda, bizim əsas məqsədimiz torpaqların azad edilməsi idi və o vaxt köçkünlərlə çoxsaylı görüşlər əsnasında deyirdim ki, bu şərait yaradılır, bu şərait yaxşıdır, - çadır şəhərcikləri, bilirsiniz ki, sonuncusu 2007-ci ildə ləğv edildi, - ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra ondan daha yaxşı şərait yaradılacaq sizin doğma torpaqlarınızda və bu gün biz bunu görürük. Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq. Bu il həm Xocalıda, həm Xankəndidə artıq həyat bərpa ediləcək, o cümlədən bu yaxın yerlərdə yerləşən Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək, Ağdam şəhəri bərpa edilir və gələn il Ağdama da ilk köç başlanacaq, yəni, quruculuq işləri geniş vüsət alıb.



Xocalıya gəldikdə isə biz sentyabrın 20-də öz suverenliyimizi tam bərpa edəndən sonra dərhal göstəriş verdim ki, ilk növbədə, Xocalıda xocalılıların evləri bərpa edilsin. Çünki mənfur düşmən qanlı soyqırımı törətmişdir, xocalılıları öz doğma torpağından didərgin salmışdır. Üstəgəl Xocalının tarixi adını dəyişdirməyə çalışırdı və azərbaycanlıların evlərinə separatçıları, düşmənləri yerləşdirmişdi, o cümlədən xarici ölkələrdən. Görün, xalqımıza qarşı nə qədər böyük və çirkin cinayət törədilmişdir və yenə də deyirəm, dünya buna biganə qalmışdır. Ermənistan və onun havadarları hesab edirdilər ki, onları heç kim cəzalandırmayacaq. Onlar səhv etmişdilər, bu gün də səhv edirlər. Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir.

Biz Xocalı soyqırımını heç vaxt unutmayacağıq. Yenə də deyirəm, biz həm İkinci Qarabağ müharibəsi zamanı, həm antiterror əməliyyatı zamanı qisasımızı cinayətkarlardan aldıq, onları məhv etdik, Ermənistan ordusunu məhv etdik və iki dəfə kapitulyasiyaya imza atmağa məcbur etdik. Biz onlardan fərqli olaraq dinc əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu hər kəs görür və bilir. Həm 2020-ci ildə, həm keçən ilin sentyabr ayında apardığımız hərbi əməliyyatlar bütün beynəlxalq humanitar hüquqa uyğun şəkildə aparılmışdır və bunu hər kəs bilir və heç kim bizə heç bir irad tuta bilmir. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir. Halbuki hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq. Bu, təbiidir, biz insanıq, ancaq eyni zamanda, biz böyük xalqın nümayəndələriyik. O xalqın ki, öz gücü ilə o əsarətdən çıxdı, o xalq ki, bir yumruq kimi birləşərək düşmənin belini qırdı, o düşmənin ki, onun arxasında o vaxt və bu gün böyük dövlətlər dayanır. O böyük dövlətlər dayanmasaydı, heç vaxt 1990-cı illərin əvvəllərində bizim torpağımız işğal altına düşməzdi. Biz o vaxt gücsüz idik, onların arxasında böyük qüvvələr dayanmışdır. Bu gün biz güclüyük və bəziləri bizə deyirlər ki, biz rəhm edək, amma onlar bizə rəhm etdilərmi ki?

Yenə də deyirəm, bütün bunlar, təbii, bizim fikirlərimizdir, duyğularımızdır. Yenə də deyirəm, biz qisasımızı aldıq, biz həm 44 günlük İkinci Qarabağ müharibəsi ərzində, həm birgünlük antiterror əməliyyatı zamanı böyük peşəkarlıq, qəhrəmanlıq, fədakarlıq göstərmişik. Bizim övladlarımız ölümə gedirdilər ki, bu torpaqları işğalçılardan azad etsinlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Sakinlər**: Allah rəhmət eləsin, amin.

Prezident **İlham Əliyev**: Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, cəsarət göstərmişdir. Bütün dünya bunu görür və xüsusilə bu gün dünyanın müxtəlif yerlərində baş verən hadisələr, müharibələr, qanlı toqquşmalar bir daha onu göstərir ki, Azərbaycan Ordusu həm peşəkardır, həm vətənpərvərdir, həm bacarıqlıdır, həm də, eyni zamanda, əməliyyatları elə aparır ki, qısa müddət ərzində həlli mümkün olmayan kimi sayılan əməliyyatlar aparılmışdır, onlardan da biri, bəlkə də birincisi Şuşa əməliyyatıdır.

Bu gün isə biz buradayıq, burada olmağımız tarixi ədalətin tam bərpası deməkdir. Xocalı bu gün qurulur, indi gedib quruculuq işləri ilə tanış olarıq. Bütün digər ərazilərdə quruculuq işləri aparılır və bu gün burada Xocalı Soyqırımı Memorialının təməli qoyulacaqdır. Xocalı qurbanlarının bu gün ruhu şaddır, Allah onlara rəhmət eləsin.



**Sakinlər**: Amin.

Prezident **İlham Əliyev**: Onların əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Sağ olun.

* * *

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına Xocalı Soyqırımı Memorialı barədə məlumat verib.

Bildirilib ki, Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi daşıyır.

Memorial müxtəlif bölmələrdən ibarət olacaq. Burada 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş faciə, həmçinin Xocalının tarixi, coğrafi əhəmiyyəti, dinc əhaliyə qarşı törədilmiş faciədən əvvəl Xocalıdakı həyat barədə faktlar yer alacaq. Memorialda Xocalının coğrafi mövqeyini təsvir etmək məqsədilə rayonun maketi də yer alacaq.

Ziyarətçilər memorialda soyqırımı qurbanlarının və şahidlərinin hekayələri, xocalılıların düşmənə qarşı mərdliyi ilə tanış ola biləcəklər. Bu hekayələr Xocalı soyqırımının miqyasını, faciə qurbanlarının iztirablarını hər bir kəsə ötürərək, Azərbaycan tarixinin ən dəhşətli barədə məlumatları çatdıracaq.

Memorialda, həmçinin faciə ilə bağlı sənədli filmlər, Xocalı həqiqətləri barədə videomateriallar nümayiş olunacaq. Eyni zamanda, Xocalının işğaldan azad olunması və cinayətkarların cəzalandırılması istiqamətində görülən tədbirlər barədə məlumatlar yer alacaq. Maarifləndirici materiallar, rəqəmsal məzmun vasitəsilə soyqırımı kimi faciələrin səbəbləri, nəticələri, qarşısının alınmasının zərurəti, cəmiyyətin insan haqlarına hörmət etməsinin vacibliyi diqqətə çatdırılacaq.

Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilən Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib. Bu faciə ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində həmişə bir vəhşilik aktı kimi yadda qalacaq.

Heydər Əliyev Fondu yarandığı 2004-cü ildən etibarən Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində dövlət tərəfindən görülmüş tədbirlərə dəstək olaraq bir sıra layihələr həyata keçirib. 2008-ci ildən isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası həyata keçirilir. "Xocalıya ədalət!" kampaniyasının sistemli fəaliyyətinin nəticəsidir ki, dünyanın bir sıra ölkələri Xocalıda ermənilər tərəfindən törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qərar və qətnamələr qəbul edib.

(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev Xocalıda Soyqırımı Memorialının təməlini qoyub və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb

**(Əvvəli 2-ci səhifədə)**

Tarixi Zəfərimizdən sonra Azərbaycan xalqı bu dəhşətli soyqırımının ildönümünü artıq fərqli şəkildə anır. Ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən azad edilməsi nəticəsində Xocalı soyqırımı qurbanlarının, həmçinin Vətən uğrunda həlak olmuş digər şəhidlərimizin qanı yerdə qalmadı, qisası alındı. Qanlı faciənin törədildiyi Xocalıda yaradılacaq Soyqırımı Memorialı isə faciə qurbanlarının, Vətənin müdafiəsi uğrunda həlak olan qəhrəmanlarımızın xatirəsinə ehtiram olmaqla yanaşı, bu qətliam barədə həqiqətlərin dünyaya çatdırılmasına və tariximizin yaşadılmasına xidmət edəcək.

* * *





Dövlətimizin başçısı Xocalı Soyqırımı Memorialının təməlini qoyub.

* * *

Təməlqoymadan sonra memorial kompleksin maketinə baxan Prezident **İlham Əliyev** deyib: Ortadakı bağ, yəni, həyat deməkdir.

**Anar Ələkbərov**: Elədir ki var, cənab Prezident. Həmin kapsul kompleksin içində olacaq.

* * *

**Sakinlər**: Çox sağ olun, cənab Prezident. Sizə uğurlar.

**Kişi sakin**: Sizə təşəkkür edirik, cənab Prezidentimiz. Otuz iki il öncə biz Xocalıdan məğlub çıxmışdıq, soyqırımına məruz qalmışdıq. Otuz iki ildən sonra biz Xocalıya qalib olaraq gəlmişik və bu qalibiyyəti bizə qazandıran Siz olmusunuz. Sizin rəhbərliyiniz, Sizin sərkərdəliyiniz, Sizin müdrik siyasətiniz biz xocalılılara, bütün Azərbaycan xalqına, bütün Türk dünyasına bu Qələbəni qazandırıb. Var olasınız, bütün xocalılılar adından Sizi öpürük, bağrımıza basırıq. Təşəkkür edirik, cənab Prezident, var olasınız.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Qadın sakin**: Cənab Prezident, bir şəhid övladı kimi, biz də Sizə minnətdarıq bütün şəhid övladları adından. Mənim atam Xocalı soyqırımı zamanı ermənilər tərəfindən əsir götürülüb, özünümüdafiə batalyonunun döyüşçüsü olub. Onun sonrakı taleyi haqqında bu gün də bizim heç bir məlumatımız yoxdur. Məhz Sizin kimi bir sərkərdə ilə bu gün biz Xocalı soyqırımının 32-ci ildönümündə bu torpaqları ziyarət etmək, o məzarsız şəhidlərimizin sanki məzarını ziyarət etmək qədər müqəddəs bir missiyadır. Xüsusilə Sizin ötən il oktyabrın 15-də, yəni Prezidentliyinizin 20-ci ilinin tamamında məhz Xocalıda Bayraq ucaltmağınız onu bir daha sübut etdi ki, bu neçə ildə ürəyiniz məhz Xocalıdan olan şəhid ailələri ilə birgə döyünür. Biz Sizə hər zaman minnətdarıq, Allah Sizi qorusun, Ordumuzu qorusun. Bütün şəhid övladları adından Sizə minnətdarıq.

Prezident **İlham Əliyev**: Çox sağ olun.

**Kişi sakin**: Cənab Prezident, bizim ailəmiz 1996-cı il fevralın 24-nə qədər tamamilə ümidini itirmişdi ki, bir daha nə Xocalını, nə də Qarabağı görməyəcəyik. 1996-cı il fevralın 24-də Ümummilli Liderimiz, böyük sərkərdəmiz, dünyaşöhrətli Heydər Əliyevimiz bizimlə - Xocalının şəhid ailələri, ziyalıları ilə görüş təyin etdi. Orada bizi əmin etdi ki, bir qarış torpağımızı da işğal altında qoymayacağıq. Onda demişdi ki, mən İlham Əliyevə özüm qədər inanıram. Onda mən hiss etdim ki, bu, onun gələcəyə verdiyi bir mesaj idi. O inanırdı ki, Ali Baş Komandanımız, cənab Prezident bunun öhdəsindən Siz gələcəksiniz, bunu Siz yerinə yetirəcəksiniz. Sizə böyük təşəkkürümüzü, minnətdarlığımızı bildiririk ki, bu gün bu şərəfi, bu şöhrəti bizə qazandırdınız. Çox sağ olun. Sizə minnətdarıq.

Prezident **İlham Əliyev**: Sağ olun. Çox sağ olun.

**Kişi sakin**: Cənab Prezident, bu gün diqqətinizə çatdırmaq istəyirəm ki, mən "Azərbaycan Bayrağı" ordenli həkiməm. 1994-cü ildə məhz Ulu Öndərin Fərmanı ilə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüşəm. 1996-cı ildə həmin ordeni mənə şəxsən özü təqdim edən vaxt mən xocalılıların bir arzusunu çatdırmışdım ki, kaş o gün olsun, torpaqlarımız azad edilsin və biz Sizinlə Xocalıda görüşə bilək. Həmin gün bu günə təsadüf edir. Ulu Öndərin daxili və xarici siyasətini çox uğurla davam etdirən məhz Sizin sayənizdə bu gün doğma, azad Xocalımızdayıq. Çox sağ olun, var olun. Allah Sizi qorusun.

**Kişi sakin**: Cənab Prezident, vaxtınızı çox almayaq. Bütün xocalılıların Ulu Öndərimiz qarşısında verdiyi bir vəd var. Mən vermişəm o vədi Ulu Öndərimizə. Mən demişdim ki, cənab Prezidentimiz, Sizin rəhbərliyinizlə biz torpaqlarımızı işğaldan azad etdikdən sonra Xocalının ən dəyərli, görkəmli bir yerində Sizin abidənizi ucaldacağıq. Cənab Prezidentimiz, Sizdən çox xahiş edirik, necə ki, bax, bu yeri uğurla seçmisiniz, Xocalının ən dəyərli bir yerində Ulu Öndərimizin abidəsini



ucaltmağı bütün xocalılılar adından Sizdən xahiş edirik.

Prezident **İlham Əliyev**: Çox sağ olun.

**Sakinlər**: Çox sağ olun, təşəkkür edirik.

* * *

Sonra Prezident İlham Əliyev sakinlərlə birlikdə Xocalı şəhərində aparılan tikinti işləri ilə tanış olub.

**Qadın sakin**: Xocalı hadisələrinin canlı şahidi kimi Sizə minnətdarlığımızı bildiririk ki, Xocalı torpağına Sizinlə birlikdə ayağımız dəyir. Hələ 1997-ci il fevralın 25-də Ulu Öndərimiz, mərhum Prezidentimiz Heydər Əliyev mənə yoldaşımın "Qızıl ulduz" medalını şəxsən özü təqdim etdi. O vaxtdan 27 il keçir. Bu gün də şadam ki, Sizinlə Xocalı torpağında görüşürəm. Allah Sizə ömür versin, cansağlığı versin, eşq olsun Müzəffər Ordumuza, eşq olsun Sizə, Ali Baş Komandan!

Prezident **İlham Əliyev**: Çox sağ olun, təşəkkür edirəm.

Digər **qadın sakin**: Əminəm ki, qədirbilən xalqımız Sizin xidmətlərinizi heç vaxt unutmayacaq. Tariximizin qızıl səhifəsi daim yaşayacaq.

Prezident **İlham Əliyev**: Sağ olun.

**Qadın sakin**: Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik etməsin.

**Sakinlər**: Amin.

* * *



Dövlətimizin başçısı və Xocalı rayon ictimaiyyətinin nümayəndələri daha sonra Xankəndi şəhərində olublar.

**Sakin**: Sizin bütün çıxışlarınızın hamısını zabit və əsgərlərə çatdırırdım. Hərdən mənə deyirlər ki, Birinci Qarabağ müharibəsi ilə İkinci Qarabağ müharibəsi arasındakı fərq nə idi? Mən də deyirdim, fərq bir dənə yalnız o idi ki, bizim qətiyyətli Ali Baş Komandanımız var və əsgərlər, xalq ona inanır. Xalq bir yumruq kimi birləşdi və necə deyərlər, "Dəmir yumruq" onların başında çatladı. Allah Sizi var eləsin.

Prezident **İlham Əliyev**: Çox sağ ol.

**Gənc sakin**: Cənab Prezident, biz gənclər olaraq Sizə böyük minnətdarlığımızı bildiririk. İnşallah, biz gənclər də gələcəkdə buraya, yurdumuza gəlib hərəmiz öz sahəmiz üzrə yaşayıb-yaradacağıq.

**Qadın sakin**: Cənab Prezident, mən şəhid qızıyam. Yəni, həmin 613 nəfərdən biri də mənim atamdır. "İgidliyə görə" medalı ilə təltif edilib. Mən atamın cəsədini axtararkən meyitlərin üz-gözü dəyişilmiş vəziyyətdə idi. Mənim 19 yaşım var idi, Tibb Universitetində üçüncü kursda oxuyurdum. Biz qan içində ağlaya-ağlaya çıxdığımız torpaqlara, bu gün sevinə-sevinə gəlmişik. Görürsünüzmü, təbiət də öz müjdəsini verir. Bu gün bizim tədbirimizin konteksti də nikbin notlar üzərində qurulub. Biz Sizə təşəkkür edirik. Siz Sərkərdəmizsiniz. Xalq-Ordu-Prezident vəhdəti ilə biz 44 günlük müharibədə düşmənin belini qırdıq və diz çökdürdük. Siz qalib ölkənin qalib Liderisiniz. Siz bizim əvəzolunmaz yuxularımızı gerçəkləşdirdiniz. Biz buna görə Sizə minnətdarıq. İnanıram ki, bu gün o şəhidlərimizin ruhu şaddır. Sizə olan sonsuz minnətdarlığımı ifadə edə bilmirəm. Azərbaycanın itirilmiş torpaqlarını azad edən Sərkərdəmizsiniz.

Prezident **İlham Əliyev**: Çox sağ olun. Bu diyarın, bu bölgənin artıq yeni, parlaq tarixi var, o da 20 sentyabr - Xocalının, Xankəndinin azad olunması günüdür. 26 fevral dəhşətli, faciəvi bir gün kimi heç vaxt bizim yaddaşımızdan silinməyəcək. Amma artıq siz də qeyd etdiyiniz kimi, təbiət də sözünüzə qüvvət verir, 20 sentyabr artıq bu bölgənin əsas azadlıq və bayram günüdür.

**Sakinlər**: Allah Sizi var eləsin, Allah Sizi qorusun. Biz bilirdik ki, Siz torpaqlarımızı işğal altında qoymayacaqsınız.

Prezident **İlham Əliyev**: Sağ olun.

* * *

Dövlətimizin başçısı həm Xocalıda, həm də Xankəndidə sakinlərlə xatirə şəkilləri çəkdirib.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbər heyəti Xocalı soyqırımı abidəsini ziyarət edib



Fevralın 26-sı Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Xocalı soyqırımı abidəsini ziyarət edib.

Müdafiə Nazirliyinin rəhbərliyi abidə önünə gül dəstələri düzüb, faciə qurbanlarının xatirəsinə ehtiram nümayiş etdiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**




# General-polkovnik Zakir Həsənov: “Bölmələrin döyüş hazırlığının və şəxsi heyətin fərdi peşəkarlığının daha da yüksəldilməsinə xüsusi diqqət yetirilsin”

Fevralın 24-də general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Müdafiə Nazirliyində növbəti xidməti müşavirə keçirilib. Müşavirədə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Müdafiə naziri yenidən Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra andiçmə mərasimində, eləcə də qardaş ölkəyə rəsmi səfəri zamanı fevralın 19-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata birgə bəyanatlarda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən səsləndirilən fikirlərin Azərbaycan Ordusuna verilən yüksək qiymət, eyni zamanda, ordumuzun inkişafı ilə bağlı qarşıya qoyulan mühüm tapşırıqlar olduğunu müşavirə iştirakçılarının diqqətinə çatdırıb.



General-polkovnik Zakir Həsənov Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunda hərbi təhsil, silahlanma, təminat-təchizat və digər istiqamətlərdə aparılan uğurlu islahatların gedişatından danışıb və bu işlərin bundan sonra da mərhələli şəkildə davam etdirilməsinin vacibliyini qeyd edib.

Müşavirədə Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti, qoşun xidmətinin təşkili və aparılması geniş təhlil edilib, məruzələr dinlənilib.

2024-cü ildə Azərbaycanda, Türkiyədə və digər ölkələrdə keçirilməsi planlaşdırılan birgə təlimlərin şəxsi heyətin təcrübə mübadiləsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi və qoşunların döyüş hazırlığının daha da yüksəldilməsinə müsbət təsir edəcəyi xüsusi vurğulanıb.

Müdafiə naziri Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə müddətli həqiqi hərbi xidmətə yeni çağırılacaq gənc əsgərlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların hərbi xidmətə adaptasiya prosesinə həssaslıqla yanaşılması, xidmət dövründə şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunması məsələlərinin diqqət mərkəzində saxlanılması və xidmət müddətini başa vurmuş gənclərin yola salınması ilə bağlı göstərişlər verib.

General-polkovnik Zakir Həsənov azad edilmiş ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, eləcə də çətin relyefli, sərt iqlim və dağlıq ərazilərdə təminat yollarının, rabitə və kommunikasiya xətlərinin daima işlək vəziyyətdə saxlanılmasının və təhlükəsizlik qaydalarına xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıb.

Nazir tərbiyəvi və ideoloji işin planlı şəkildə aparılması, mənəvi-psixoloji təminatın daha da gücləndirilməsi, həmçinin hərbi intizamın daim yüksək səviyyədə saxlanılması ilə bağlı tələbləri komandir heyətinin diqqətinə çatdırıb.

Sonda bölmələrin döyüş hazırlığının və şəxsi heyətin fərdi peşəkarlığının daha da artırılmasına xüsusi diqqətin yetirilməsi, eləcə də 2024-cü ildə qarşıda duran digər vəzifələrin yüksək keyfiyyətlə icrası ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslərə göstərişlər verilib.

# Fuad Nəcəfli Əlahiddə Ümumqoşun Ordunun Hərbi Hava və Hava Hücumundan Müdafiə birləşmə və hissələrində olub, xidmət şəraiti ilə maraqlanıb






Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Əlahiddə Ümumqoşun Ordunun Hərbi Hava və Hava Hücumundan Müdafiə birləşmə və hissələrində olub. Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev səlahiyyətli nümayəndəyə silahlanmada olan və silahlanmaya yeni daxil olunmuş silah və texnikanı təqdim edərək, onların taktiki-texniki xüsusiyyətləri haqqında qısa məlumat verib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Fuad Nəcəfli hərbi hissənin şəxsi heyətinin döyüş qabiliyyətinin yüksəldilməsində, praktiki vərdişlərinin təkmilləşdirilməsində, silah və texnikanın bacarıqla idarə olunmasının öyrədilməsində istifadə olunan təlim maddi bazası ilə tanış olub, birləşmə və hissələrin idarəetmə məntəqələrinin işini təmin edən rabitə avadanlıqları və texniki vasitələrə baxış keçirib.

Səlahiyyətli nümayəndəyə Hərbi Hava Qüvvələrinin təyyarə, helikopter və pilotsuz



uçuş aparatları haqqında, eləcə də onların qorunub saxlanılması və istismarı barədə də ətraflı məlumat verilib.

Daha sonra səlahiyyətli nümayəndə Fuad Nəcəfli hərbi hissənin texniki-istismar hissəsində olaraq texnikaya göstərilən qulluqla maraqlanıb, texniki və xidməti otaqların təyinatı ilə tanış olub.

Şəxsi heyətin qidalanma şəraiti və hərbi hissənin qərargahında yaradılmış şəraitlə tanış olan səlahiyyətli nümayəndə hərbi hissənin kollektivinə xidmətlərində uğurlar arzulayıb.

# Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə “Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması” mövzusunda taktiki-xüsusi təlim keçirilib







Təlimdə əvvəlcə qarlı-çovğunlu havalar və çətin keçiləbilən ərazilərdə şəxsi heyətin fəaliyyəti üçün lazım olan təchizat, müxtəlif dağ ləvazimatları və ərzaqla təminatı, həmçinin bölmələrin qış şərtlərində ərazidə məskunlaşma qabiliyyəti yoxlanılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şiddətli soyuqlarda döyüş əməliyyatlarını və xilasetmə tədbirlərini yüksək peşəkarlıqla aparmaq, komandir heyətinin bölmələrin idarə edilməsi üzrə bilik və bacarıqlarını təkmilləşdirmək məqsədilə təlimə cəlb edilmiş bölmələrlə praktiki məşğələlər keçirilib.



Məşğələlər zamanı yüksək dağlıq ərazilərdə qrupun hərəkəti, himayəli irəliləmə, sərt yamaclarda hərəkət, xizəklə qrupun döyüş düzülüşləri, dağçılıq ləvazimatlarından istifadə etməklə sərt enişlərdə, sıldırım yamaclarda hərəkət qaydaları məşq etdirilib.

Hər zaman yüksək dözümlülük və bacarıq tələb edən əməliyyatlarda iştirak edən xüsusi təyinatlıların şiddətli soyuqlara orqanizmlərinin öyrəşdirilməsi üçün müxtəlif təlimlər keçirilib.

Şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqlarının yoxlanıldığı taktiki-xüsusi təlimdə xüsusi təyinatlı qruplar ərazinin maketi üzərində tapşırıqları dəqiqləşdirərək, şərti düşmən arxasında taktiki fəaliyyətləri icra edib. Verilən tapşırığa əsasən, qruplarla şərti düşmənin yerləşdiyi yüksəkliyə basqın fəaliyyəti yerinə yetirilib.

Basqın fəaliyyəti zamanı yaralanan hərbi qulluqçuya çevik şəkildə tibbi yardım göstərildikdən sonra çətin keçiləbilən ərazilər üçün nəzərdə tutulmuş hərbi daşıma vasitələrinin köməyi ilə yaralının təxliyəsi həyata keçirilib.

Soyuq havalarda ərazinin xüsusiyyətlərindən bacarıqla istifadə edərək, döyüş əməliyyatlarının aparılması, yaralıların təxliyə edilməsi və qarlı-şaxtalı şəraitdə şəxsi heyətin xizək sürmə vərdişlərinin təkmilləşdirildiyi təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.



# Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı başa çatıb



*Cari ilin döyüş hazırlığı planına əsasən, "N" hərbi hissəsində bir qrup hərbi vəzifəlinin iştirakı ilə təlim toplanışı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq hərbi vəzifəlilərlə atəş hazırlığı üzrə məşğələlər keçirilib, onlara müxtəlif çaplı atıcı silah və qumbaraatanların taktiki-texniki xüsusiyyətləri çatdırılıb.

Təhlükəsizlik qaydaları izah olunduqdan sonra peyda olan hədəflərə atəş mövqeyini dəyişməklə müxtəlif vəziyyətlərdən atəşin aparılması üzrə tapşırıqlar icra olunub.

Döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi, eləcə də praktiki vərdişlərinin artırılması məqsədilə keçirilən toplanışda fəaliyyətlər uğurla yerinə yetirilib.

* * *

2024-cü ilin hazırlıq planına əsasən, "N" hərbi hissəsində ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin iştirakı ilə keçirilən təlim toplanışı başa çatıb.

Təlim toplanışının başa çatması münasibətilə bağlanış mərasimi keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Mərasimdə çıxış edənlər vurğulayıblar ki, ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin iştirakı ilə keçirilən təlim toplanışının əsas məqsədi döyüş vərdişlərinin, hərbi ixtisas və təcrübələrinin təkmilləşdirilməsi ilə yanaşı, onları ordumuzun arsenalında olan müasir silah və hərbi texnika ilə yaxından tanış etməkdir.

Qeyd olunub ki, toplanış müddətində hərbi vəzifəlilərlə döyüş hazırlığı üzrə məşğələlər keçirilib, onlara silah və texnikanın taktiki-texniki xüsusiyyətləri, onlardan düzgün istifadə qaydaları öyrədilib, həmçinin sıra, taktiki, hərbi tibbi və ixtisas hazırlıqlarından nəzəri və praktiki məşğələlər təşkil olunub.

Bildirilib ki, təlim toplanışında qarşıya qoyulmuş fəaliyyətlər uğurla yerinə yetirilib.

Sonda təlim toplanışında fərqlənənlərə fəxri fərmanlar təqdim olunub, hərbi vəzifəlilər onlara ayrılmış xüsusi nəqliyyat vasitələri ilə yaşayış yerlərinə yola salınıblar.





# HDQ-nin Dəniz xüsusi təyinatlıları ilə təlim məşqləri keçirilib

2024-cü ilin döyüş hazırlığı planına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) Dəniz xüsusi təyinatlıları ilə kəşfiyyat tapşırıqlarının icrası üzrə məşqlər keçirilib.

Real döyüş şəraitinə uyğunlaşdırılmış təlim məşqlərində xüsusi təyinatlılar müasir texnologiya və yeni döyüş taktikasından istifadə edərək, antiterror əməliyyatlarının, o cümlədən yaşayış məntəqələrindəki infrastruktur obyektlərində gizlənən şərti düşmənin terror qruplaşmasının zərərsizləşdirilməsi üzrə tapşırıqları icra ediblər.

Xüsusi təyinatlılar zərbə PUA-sı tətbiq edilməklə şərti düşmənin müşahidə məntəqələri və uzunmüddətli atəş nöqtələrini sıradan çıxarıb, aerozol pərdəsindən və ərazinin qorunma xüsusiyyətlərindən istifadə etməklə mobil qruplar şəklində mövqelərə qəfil sızaraq pusqu, basqın təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Şərti terrorçu qrup tərəfindən ələ keçirilən gəminin azad edilməsi və gəmi heyətinin təhlükəsiz şəraitdə təxliyəsi tapşırıqlarının icrası zamanı da yüksək peşəkarlıq nümayiş etdirilib.

Təlim məşqlərində qarşıya qoyulan tapşırıqlar dəniz xüsusi təyinatlıları tərəfindən müvəffəqiyyətlə icra olunub.

# Şəhidlərimizin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib







*Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli Qəhrəmanı Əfqan Hüseynov və Vətən müharibəsi şəhidi Toğrul Atakişiyevin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, kursantlar, məktəblilər, şəhidlərin ailə üzvləri və yaxınları, eləcə də digər qonaqlar iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin məzarları ziyarət edilib, önünə tər çiçəklər düzülüb, ruhlarına dualar oxunub.

Anım mərasimlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun Vətən müharibəsində qazandığı tarixi qələbədən, bu şanlı qələbənin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açaraq şəhidlərimizin şərəfli həyat və döyüş yollarından danışıblar.

Şəhidlərin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# "Xocalım, sabahın xeyir!" adlı rekviyem-tamaşa təqdim olunub

Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin əsgər klubunda XX əsrin ən böyük cinayətlərindən olan Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş "Xocalım, sabahın xeyir!" adlı rekviyem-tamaşa şəxsi heyətə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin eyniadlı poeması əsasında Bakı Bələdiyyə Teatrının hazırladığı rekviyem-tamaşa başlamazdan öncə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının, eləcə də Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.



Rekviyem-tamaşanın birinci hissəsində Xocalı qətliamının qanlı səhnələri, günahsız uşaqların, qadınların, qocaların aman verilmədən işgəncə və əzablarla vəhşicəsinə qətlə yetirilməsi, erməni silahlı dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinin yerlə-yeksan edilməsi səhnələri peşəkar aktyorların iştirakı ilə canlandırılıb. Haray-qışqırıq səsi tamaşaçıların qəddar düşmənə qarşı qəzəb və nifrət hissini daha da artırıb.

Ötən il sentyabrın 19-dan 20-dək 23 saat ərzində Azərbaycan Ordusunun apardığı əməliyyat tədbirləri nəticəsində düşmənin silahı yerə qoyaraq ağ bayraq qaldırmağa məcbur edilməsi, əsgər və zabitlərimizin qəhrəmanlığı, şücaəti sayəsində həmin şəhər və kəndlərin işğaldan azad edilməsi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltması səhnələri tamaşaçılara qürurverici və duyğulu anlar yaşadıb.

Rekviyem-tamaşa Prezident İlham Əliyevin andiçmə mərasimində söylədiyi "Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır... Yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!" fikirləri və "Böyük Zəfər marşı" ilə başa çatıb.





Tamaşadan sonra polkovnik A.Qurbani Bakı Bələdiyyə Teatrının və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivlərinə uğurlu tamaşaya görə minnətdarlığını bildirib və Ulu Öndər Heydər Əliyevin ideyalarına əsaslanaraq qeyd edib ki, qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən Xocalı soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. Bunun üçün isə yalnız möhkəm və yenilməz milli birlik nümayiş etdirməliyik. Xalqımıza qarşı törədiləbiləcək hər cür xəyanətin və təcavüzün qarşısını hamımız üçün ali məqsəd olan müstəqil Azərbaycan Dövləti uğrunda dönməz mübarizə əzmi və iradəsi ilə almaq olar. Azərbaycan əsgəri Müzəffər Ali Baş Komandanın əmrlərinə hər an hazırdır!

## "Dünya Qarabağda törədilən qırğınlara qarşı heç bir tədbir görmədi"

*Azərbaycan torpaqları və onun tərkib hissəsi olan Qarabağ uzun illər işğal altında qaldı. Xocalı başda olmaqla, bu bölgələrdə çoxlu qırğınlar törədildi. Lakin dünya buna qarşı bir tədbir görmədi.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Sakaryada keçirilən tədbirdə bildirib.

Region ölkələrinin gücünün birlikdən qaynaqlandığını qeyd edən Prezident Ərdoğan deyib: "Türkiyə və türk milləti olaraq bu torpaqlarda sülh və əmin-amanlıq içində yaşamaq istəyiriksə, görəcəyimiz işlər bəllidir. Bizim quruda, dənizdə və havada güclü müdafiə sənayemiz və güclü ordumuz olmalıdır. Digər ölkələr üçün bunlar seçim ola bilər, amma bizim üçün bu, bir öhdəlikdir".

## "Xocalı qırğını ürəkləri ağrıdan vəhşilikdir"

Türkiyənin Müdafiə Nazirliyi Xocalı soyqırımı qurbanlarının xatirəsini anıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə Müdafiə Nazirliyinin sosial şəbəkələrdə paylaşdığı məlumatda deyilir: "Xocalı qırğını ürəkləri ağrıdan vəhşilikdir. Otuz iki il əvvəl Xocalıda vəhşicəsinə qətlə yetirilmiş qardaşlarımızın xatirəsini ehtiramla anırıq. Bütün Azərbaycan xalqının kədərini bölüşürük".

Nazirliyin məlumatına erməni silahlı birləşmələrinin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən infoqrafika da əlavə olunub.

# Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib




Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, anım mərasimlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələrinin keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan etməsindən danışıblar. Qeyd olunub ki, erməni təcavüzkarlarının xalqımıza qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirilib, 1275 dinc sakin əsir götürülüb, 150 nəfərin taleyi isə hələ də məlum deyil.

Keçirilən mərasimlərdə Ermənistanın təxribatlarına və hərbi təcavüzünə cavab olaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsindən, qazanılan qələbədən və Azərbaycan Ordusu tərəfindən həyata keçirilən antiterror əməliyyatından bəhs edilib.

Silsilə tədbirlərdə Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, eləcə də Heydər Əliyev Fondunun həyata keçirdiyi məqsədyönlü fəaliyyətlər xüsusi qeyd olunub.

Anım tədbirlərində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin hazırladığı ədəbi-bədii kompozisiyalar, fotosərgilər, videoçarxlar nümayiş etdirilib, Xocalı itkinləri mövzusunda çəkilmiş "13" adlı bədii-sənədli və digər filmlər izlənilib.

Həmçinin hərbi qulluqçular Xocalı soyqırımı abidələrini ziyarət ediblər, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub və faciənin şahidləri ilə görüşlər keçirilib.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində xalqımıza qarşı törədilmiş XX əsrin ən dəhşətli faciələrindən sayılan Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş "Xocalı soyqırımı: unutmadıq, unutdurmadıq" adlı anım tədbiri keçirildi.

Anım tədbirində Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu, Qeyri-Hökumət Təşkilatlarının nümayəndələri, müharibə veteranları və başqa qonaqlar iştirak etdilər.

Tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "Xocalı soyqırımı qan yaddaşımızda" adlı geniş məruzə ilə çıxış edərək bildirdi ki, Xocalı faciəsi tarixdə analoqu olmayan dəhşətli hadisələrdən biridir. "Bu faciə Azərbaycanın Qarabağ bölgəsinin ən qədim insan məskənlərindən olan Xocalıda baş vermiş soyqırımı aktıdır. Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost, Xatın, Lidisa, Sonqmi soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaylarla müqayisə oluna bilər. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etdilər. Şəhər dörd tərəfdən erməni qoşunları ilə əhatə olunmuşdu. Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü, amansız atəş açılmış, nəticədə şəhər tamamilə alova bürünmüş, yanıb külə dönmüşdü. Bir gecənin içində qədim Xocalı yerlə-yeksan olmuşdu. Xocalını unutmadıq, unutdurmadıq".





Muzey rəisi məruzəsində qətliam barədə geniş faktları diqqətə çatdıraraq qeyd etdi ki, dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirir. "Azərbaycan xalqı Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət təkcə xalqımıza qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Vaxtilə Ermənistanda rəhbər vəzifələr tutmuş Seyran Ohanyan, Serj Sarkisyan, Robert Koçaryan və başqa cinayətkarlar baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər. Belə dəhşətli soyqırımı cinayətləri, qətliamlar heç zaman xalqın və tarixin yaddaşından silinmir. Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir hissəsinin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin hiyləgər, fitnəkar düşmən məqsədinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi. Ən başlıcası isə odur ki, 44 günlük Vətən müharibəsi və əməliyyat tədbirləri nəticəsində şanlı Azərbaycan Ordusu işğalçı erməni hərbi birləşmələrini tarixi torpaqlarımızdan qovub çıxardı, hərb tariximizə heç zaman unudulmayacaq və həmişə qürur hissi doğuracaq səhifələr yazdı".

Anım tədbiri Xocalı faciəsinə həsr olunmuş sənədli filmin nümayişi ilə davam etdi.

Sonda tədbir iştirakçıları Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mahnılarını, marşlarını böyük maraqla dinlədilər və ACCSENT Art studiyasının kiçik yaşlı rəssamlarının Xocalı soyqırımına həsr etdikləri rəsmlərdən ibarət sərgisinə tamaşa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Xocalı: unudulmaz soyqırımı, qazanılan Zəfər tarixi

Ordubadın Parağa kəndinin ən yaşlı sakinlərindən olan Müxəstə xanım deportasiya və soyqırımı tarixinin şahidi olub. Doğulduğu Dərələyəz mahalının Gömür kəndində 1988-ci ildə mənfur ermənilərin təzyiqi ilə üzləşən Müxəstə xanımın ailəsinin köçü Füzuli rayonundan və Şuşa şəhərindən keçib. Son sığındıqları Xocalı olub. Azğın düşmənin soyqırımı ilə üz-üzə qalan ailə oradan da didərgin düşüb. Danışmaqda çətinlik çəkir. Yurd itkisi, üstəgəl Xocalı dəhşətini yaşamış Müxəstə xanımın aldığı mənəvi zərbəni təsəvvür etmək çətin deyil. Xocalı soyqırımının şahidi olan Müxəstə xanımın ailəsi kimi, neçə-neçə ailə didərgin taleyi yaşadı. Kimisinin uşaqlığı, kimisinin gəncliyi, kimisinin də arzusu qışın sazağında, qarlı dağlarda donub qaldı...

Xocalı faciəsindən bizi 32 illik zaman ayırır. Üzərindən hələ neçə-neçə illər keçəcək. Lakin nə biz, nə bizdən sonra gələn nəsillər insanlıq əleyhinə törədilmiş bu faciəni unutmayacağıq. Oxuyacağıq, xatırlayacağıq və yazacağıq ki, 1992-ci ilin 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq, keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdular. 106 qadın, 63 uşaq və 70 yaşlı insan olmaqla, 613 nəfər qətlə yetirildi, 1275 sakin girov götürüldü, 150 nəfərin taleyi isə bu günədək naməlum qalıb. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini və 130 uşaq isə bir valideynini itirdi. Bunlar hamısı tarixi faktlardır.

Bu faciə xocalılılara böyük zərbə vurdu. Nəinki Xocalı sakinlərinin, hər bir azərbaycanlının yaddaşına yazıldı. Məhz Xocalının intiqamını almaq, Azərbaycanın bu ərazisini düşmən tapdağından xilas etmək üçün hərb peşəsini seçən oğullar oldu. Xocalının qisasını almaq üçün neçə gənc yolunu hərbi məktəblərdən saldı. Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən start verilən "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası bu soyqırımı barədə dünya ictimaiyyətinin məlumatlandırılmasının artırılmasına, Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi, sağ qalmış ailələrə dəstək göstərilməsi, bu hadisələrin yaddaşlarda yaşaması, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına xidmət etdi.

2022-ci il XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 30-cu ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə keçirilən yürüşdə faciə qurbanlarının xatirəsi ehtiramla yad edildi. Artıq düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı".

2020-ci il Azərbaycan tarixinə Zəfər ili kimi yazıldı. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gündə parlaq qələbəyə imza atdı. Əzəli ata-baba torpaqlarımızı düşmənin murdar ayaq izlərindən təmizlədi, xalqın 30 ilə yaxın həsrətinə, nisgilinə son qoydu. Sevinc bəxş etdi, ümidlərini doğrultdu. Ərazi bütövlüyümüz təmin olundu. Azərbaycanın üçrəngli Dövlət Bayrağı işğaldan azad edilmiş torpaqlarımızda - Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada, Əsgəranda, Ağdərədə, Xocavənddə, Xankəndidə dalğalandı. Haqq-ədalət gec də olsa, öz yerini tapdı. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də keçirilən əməliyyat tədbirləri nəticəsində Ermənistan silahlı birləşmələrindən və separatçıların nəzarətində olan qeyri-qanuni silahlı dəstələrdən təmizləndi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Bundan böyük qürur, iftixar hissi olardımı?!

Artıq Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi yad edirik. Və daha neçə illər ötəcək, əsrlər keçəcək, xalqımız 1992-ci il 25-26 fevral tarixində baş vermiş o dəhşətli faciəni heç vaxt unutmayacaq. Hər il faciə qurbanlarını yad edəcək, Xocalını və digər işğal altında olan torpaqlarımızı azad edərək öz canlarından keçən Vətən oğullarını ehtiramla anacaq, gənc nəsillərə örnək göstərəcək.

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Xocalının qisası qiyamətə qalmadı...

Əsrin faciəsi Xocalı özümüzə qayıdış, kimliyimizin, heysiyyətimizin kükrəyişində, düşmənimizi daha yaxından tanımağımızda ağrılı hadisə oldu. İllərdir qaysaq bağlamayacaq qədər dərin olan bu yaranın qaysaqlanması uzun çəkdi - Xocalıya Azərbaycan əsgərinin nəfəsi dəyəndə qaysaqlayacaqdı.

32 ildir hər dəfə Xocalı deyəndə ürəyimiz uçunurdu. Zaman keçsə də, Xocalı faciəsinin tükürpədici dəhşətlərini unutmadıq, unutmayacağıq.

Xocalı soyqırımından nə qədər zaman keçsə də, bu qətliam hər birimizin yaddaşına əbədi həkk olunub. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları Xocalı şəhərini yerlə-yeksan etdilər. Məkrli düşmənin qəddarlıqla həyata keçirdiyi bu amansız, qanlı cinayət həyata keçiriləndə xocalılılar son anadək vuruşaraq düşmən qarşısında əyilməmişdi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyirdi: "Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür".

Xocalı mühüm geostrateji mövqeyi ilə seçilir. Qarabağda yeganə hava limanı buradaydı. Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi də bu şəhərin işğal edilməsi ilə Dağlıq Qarabağa nəzarətin tam ələ keçirilməsi, eyni zamanda, hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Strateji mövqeyi ilə yanaşı, Xocalı həm də ölkəmizin zəngin tarixə malik ərazilərindən biridir. Bu ərazinin tarixində Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid kurqanlar özünəməxsus yer tutur. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatları ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkara çıxarılmış, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Tarixçilər müəyyən ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti eramızdan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Xocalı mühüm arxeoloji abidələri ilə Azərbaycanın qədim tarixini özündə əks etdirdiyindən ermənilərin burada həyata keçirdikləri soyqırımının bir məqsədi də azərbaycanlılara məxsus mədəniyyəti yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal ediləndən dərhal sonra onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı da xüsusi texnika ilə dağıdılmışdı.

Xocalının əhalisi 1991-ci ildə 7 min nəfər idi, burada Ermənistandan, Xankəndidən və Qarabağın digər yerlərindən qovulmuş Azərbaycan türkləri, həmçinin Özbəkistandan çıxarılmış məhsəti türkləri də məskunlaşmışdı.

Düşmənin Xocalını işğalı əvvəlcədən hazırlanmış plan əsasında aparılmışdı. Xocalı 1991-ci ilin oktyabrından blokada vəziyyətində idi. 1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevralında Malıbəyli və Quşçular kəndlərini işğal etdilər. Həmin kəndlərin işğalından bir neçə gün sonra Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin iştirakı ilə işğal olundu. Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kənd-lərdə çox sayda raket qurğuları və zirehli texnikalar var idi. Fevralın ortalarından Xocalı erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. İşğal 1992-ci il fevralın 25-dən 26-na keçən gecə yerinə yetirildi. Ermənistan silahlı qüvvələrinin bölmələri ilə yanaşı, çoxlu erməni hərbçilərinin xidmət etdiyi keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı da Xocalı şəhərinə hücum etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişdi.

Düşmən Xocalıya hücum zamanı "yandırılmış torpaq" taktikasını yeritdi. Hücumdan əvvəl bir neçə saat ərzində qəsəbə toplardan, zirehli texnikalardan fasiləsiz atəşə tutuldu, xarabalığa çevrildi. Həmin dövrdə Ermənistanın prezidenti L.Ter-Petrosyan erməni ordusuna müraciətlə deyirdi: "Siz, ermənilər düşməni öldürərkən ürəyiyumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir". Sonralar əsir götürülmüş erməni əsgərlərinin dedikləri bu vəhşi tapşırığın həyata keçirildiyini təsdiq edir. Mixail Qazaryan (Hadrut rayonunun sakini) bildirirdi: "Əlbəttə, mən müharibəyə getdiyimi başa düşürdüm, ancaq uşaqlara atəş açacağımı və hətta öldürəcəyimi ağlıma da gətirməzdim". Aşot Barxudaryan (Mehri rayonunun sakini) deyirdi: "Adamlar qışqırır, ağlayırdılar, bizim yaralıları çıxarırdılar, azərbaycanlılar isə yolun ortasında qalmışdılar, tanklar, zirehli texnika, yük maşınları onların üzərindən keçib gedirdi". Rantik Mirzoyan isə (İrəvan şəhərinin sakini) faciəni belə xatırlayırdı: "Və burada mən bizimkilərin törətdikləri vəhşilikləri gördüm. Mən heç vaxt belə şey görməmişdim. Meyitlərin iyi hər yanı bürümüşdü. Hər yerdə meyitlər tökülüb qalmışdı". Ermənistanın eks prezidentlərindən biri prezidenti Serj Sarkisyan isə ermənilərin həqiqi simasını açaraq xarici jurnalistlə müsahibəsində bildirirdi: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmazlar. Biz bu streotipi dağıtdıq. Məhz bu baş verdi".

Jurnalistin minlərlə adamın öldürülməsindən təəssüf keçirdib-keçirmədiyi sualına Sarkisyan belə cavab vermişdi: "Mən heç bir təəssüf keçirmirəm, çünki hətta minlərlə əhali ölərsə, bu cür sərt gedişlər zəruridir". Bir vaxtlar Ermənistanda ən yüksək siyasi və hərbi vəzifə tutan bir şəxsin bu cür sözləri azərbaycanlı mülki əhaliyə qarşı törədilmiş cinayətlərin əvvəlcədən düşünülmüş plan əsasında həyata keçirildiyini təsdiq edir.

Dünya birliyinin gözü qarşısında baş verən bu dəhşətli qətliam xüsusi qəddarlıqla həyata keçirilmişdi. Düşmən 7 min əhalisi olan Xocalı şəhərini yerlə-yeksan etdi, dinc əhalini qırdı, canlarını güclə qurtaranlar qışın soyuğunda, qarda, şaxtada dağlarda, meşələrdə gizləndi. Əksəriyyəti soyuqdan dondu. Xocalı soyqırımında 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. Həmin gecə 1275 nəfər dinc sakin girov götürüldü, onlardan 150-nin taleyi indi də məlum deyil. Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, həm də bütün bəşəriyyətə qarşı cinayətdir.

Ermənilər Xocalı üzərinə hərbi əməliyyat keçirmək məqsədilə hücum etməmişdilər. Məqsədləri dinc əhaliyə divan tutmaq idi. Düşmən Xocalıda ciddi hərbi qüvvə olmamasından xəbərdar idi. Şəhərin azsaylı müdafiəçiləri XTM dəstəsinin bir bölüyü, yerli özünümüdafiə taboru və minamyot batareyasından ibarət idi. Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin rəhbərlik etdiyi bu qüvvələr axıra qədər müqavimət göstərdilər, lakin düşmənin dəfələrlə üstün qüvvəsi və texnikasının qarşısını ala bilmədilər. Şəhərin müdafiəçilərinin, demək olar ki, hamısı son damla qanına kimi döyüşdü, şəhid oldu.

Xocalının sağ qalmış sakinləri hadisələri xatırlamaqdan da dəhşətə gəlirlər. Sənubər Ələkbərova danışır: "Meyitlərdən böyük bir dağ əmələ gəlmişdi, anamı güllələdilər, qızlarım Sevinc və Hicranı yaraladılar, güllə mənə də dəydi, gənc qadınlar və uşaqlar qarın üstündə ölürdülər".

Səriyyə Talıbova isə daha dəhşətli hadisələrin şahidi olmuşdu: "Bizi erməni qəbiristanlığına gətirdilər... Burada erməni döyüşçünün qəbri üstündə 4 məshəti türkünün və 3 azərbaycanlının başını kəsdilər... Sonra valideynlərin gözləri qarşısında uşaqlarına işgəncə verdilər və öldürdülər... Az sonra milli ordunun formasında 2 azərbaycanlını gətirdilər, ucu iti dəmirlə onların gözlərini çıxartdılar". On bir yaşlı Ramil Həsənov xatırlayır: "Dostlarım Elçin və Elgizin meşədə necə öldüklərini yadımdan çıxara bilmirəm, onların ayaqları donmuşdu, bizimlə qaça bilmirdilər, lal-dinməz qarın üstündə uzanmışdılar və yavaş-yavaş gözlərini yumurdular".

Xocalı faciəsinə hüquqi-siyasi qiymət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildi. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul etdi. Yalnız bundan sonra, Azərbaycan hökuməti və dünya azərbaycanlıları erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, bu qətliamın soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərirlər.

Xocalı faciəsi barədə dünya ictimaiyyətinə dolğun və geniş məlumatlar verilməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının da xüsusi xidmətləri vardır. Bu kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunmuşdur. Azərbaycan həqiqətlərinin əsil mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm işlər görülmüşdür. Xocalı soyqırımı haqqında dünyanın müxtəlif ölkələrində keçirilən aksiyalara dəstək məqsədilə xüsusi hazırlanmış ekspozisiyalar, ingilis dilində bukletlər göndərilir. Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri vasitəsilə ABŞ, Cənubi Afrika Respublikası, Koreya Respublikası, Belarus, Çexiya, Fransa, Gürcüstan, İndoneziya, İsveç, İngiltərə, İsrail, İordaniya, Kanada, Qətər, Qazaxıstan, Özbəkistan və Yaponiyada təqdim olunan 17 ekspozisiya və nəşrlərlə yanaşı, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, İran, İspaniya, Macarıstan, Səudiyyə Ərəbistanı, Türkiyə və Türkmənistan ictimaiyyəti də Xocalıda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri qanlı cinayət və vandalizm aktları barədə geniş məlumat əldə etmişdir.

Bu vəhşiliklər haqqında xarici mətbuatın yazdıqlarından:

Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə xəbər verirlər. Krua l'Eveneman jurnalı (Paris), 25 fevral 1992-ci il.

Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar. Faynenşl Tayms qəzeti (London), 9 mart 1992-ci il.

Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır. Tayms qəzeti (London), 4 mart 1992-ci il.

Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür. İzvestiya (Moskva), 4 mart 1992-ci il.

Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri görmüşlər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır. Le Mond qəzeti (Paris), 14 mart 1992-ci il.

Mayor Leonid Kravets: "Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü". İzvestiya (Moskva), 13 mart 1992-ci il.

Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz. R.Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur).

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatlarına cavab verməklə yanaşı, Azərbaycan əzəli torpaqlarımızın işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi üçün Vətən müharibəsini başladı.

Vətən müharibəsinin getdiyi o günlərdə də düşmən öz xislətini bir daha büruzə verdi. Beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, dinc əhalinin məskunlaşdığı Gəncəni, Bərdəni, Naftalanı, Tərtəri, Mingəçeviri və digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə aldı.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu düşmən üzərində parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan əsgəri günahsız xocalılıların qisasını aldı, torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Prezident cənab İlham Əliyevin dediyi kimi: "Biz onların cavabını döyüş meydanında verdik, bütün Şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı. Xocalı soyqırımını ...törədən mənfur düşmən döyüş meydanında məğlub oldu, məhv oldu"...

Xocalı faciəsindən 32 il sonra düşmən Xocalıda da məğlub edildi - Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 61
Nüsxə 4650